**UOT 894.362**

**Mahirə Yaqubova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dosent**
**E-mail:maya-64@mail.ru**

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏLƏRİN TARİXİ ƏHƏMİYYƏTİ HAQQINDA

**Xülasə**: Azərbaycan dövlət başçısının II Qarabağ müharibəsi dövründə xarici KİV-lərə verdiyi müsahibələr təkcə tarixi, hərbi-siyasi baxımdan deyil, həm də natiqlik məharəti baxımından ciddi elmi əhəmiyyət kəsb edir və müxtəlif aspektlərdə öyrənilmək üçün geniş material verir.

Sirr deyildir ki, xalqımız 44 günlük Vətən müharibəsində minillik tarixinin yeni və çox fərqli bir mərhələsini yaşamışdır. Erməni işğalına qarşı aparılan bu müharibə ölkəmizin həm hərbi qüdrətini, həm də onun mənəvi-intellektual gücünü bütün dünyaya göstərdi. Bu baxımdan dövlət başçısı və Ali Baş Komandan İlham Əliyevin müharibə günlərində 30-a yaxın xarici media nümayəndəsinə verdiyi müsahibənin müstəsna əhəmiyyəti olmuşdur.

Hazırda kitab şəklində çap olunaraq (1) ciddi elmi mənbəyə çevrilmiş həmin müsahibələr mövcud Azərbaycan gerçəkliyi, Qarabağ probleminin mahiyyəti, erməni işğalının miqyası, əks-hücum əməliyyatlarının zəruruiliyi, Bakıya qarşı informasiya müharibəsi və s. barədə dünya ictimaiyyətinə dövlətin birinci şəxsinin dilindən xeyli qiymətli məlumatlar verilmiş, bir çox mühüm məsələlərə rəsmi şəkildə aydınlıq gətirilmişdir.

İnformasiya savaşında önəmli yer tutan və rəsmi məlumat sayılan bu müsahibələr Azərbaycan dövlət başçısının dərin siyasi biliyini, yüksək intellektini və polemika mədəniyyətini də nümayiş etdirmiş oldu.

**Açar sözlər:** informativlik, həqiqət, müsahibə, media, informasiya müharibəsi, feyk, rəsmi məlumat, polemika.

Müasir dövrdə aparılan müharibələr həm rəqibə yaxınlaşmadan məsafədən zərbə endirməklə, həm də hərbi əməliyyatlarla yanaşı geniş informasiya savaşının aparılması ilə fərqlənir. Bu mənada II Qarabağ savaşında informasiya müharibəsinin yeni dalğası ilə üzləşməli olduq. Bu psixoloji müharibə göstərdi ki, müasir dövrdə informasiyanın hazırlanması və ötürülməsində istifadə edilən maddi-texniki bazanın inkişafı ilə informasiya müharibəsinin tətbiqi və texnologiyaları köklü şəkildə dəyişmiş, bu sahədə internet resursları, o cümlədən sosial şəbəkələr üstünlüyü ələ keçirmişdir.

Dövlət suverenliyi, ölkənin ərazi bütövlüyü və milli ləyaqət uğrunda savaşa qalxmış Azərbaycan xalqı əks-hücum əməliyyatlarının başladığı sentyabrın 27-dən noyabrın 9-dək altı həftəlik dövrdə sınaqlarla dolu minillik tarixinin tamamilə yeni və fərqli bir keyfiyyət mərhələsini yaşadı. 44 günlük Vətən müharibəsi bir daha aydın şəkildə göstərdi ki, 30 ilə yaxın bir müddətdə torpaqları işğala məruz qalmış bir ölkə kimi Azərbaycan sadəcə, özünün ərazi bütövlüyünü və dövlət maraqlarını qoruyur.

Azərbaycan uzun illər ərzində işğal faktını diplomatik yolla aradan qaldırmağın mümkünsüzlüyünü görüb, əks-hücum əməliyyatlarına rəvac verməklə bütün dünyanın diqqətini Qarabağ probleminə, özünün haqq işinə yönəldə bildi. Sübut etdi ki, ərazi milli ruhla çuğlaşanda Vətənə çevrilir. Yalnız sağlam milli şüura malik olan xalq öz haqq işi uğrunda bu dərəcədə qətiyyət və qəhrəmanlıqla döyüşə bilər.

Döyüş meydanında uduzan Ermənistan həm dünya mətbuatının, həm də güclü lobbisinin köməyi ilə ABŞ, Rusiya, xüsusən Fransa kimi böyük dövlətləri Azərbaycanın üstünə qaldırmağa çalışırdı. Rusiya telekanallarının qərəzli aparıcıları, muzdlu "ekspertləri", sanki Ermənistanın vəkili rolunda çıxış edir, ölkə ictimaiyyətində Azərbaycan haqqında yanlış təsəvvür formalaşdırmağa cəhd edirdilər. Avropanın bəzi ölkələrində də gücün paradoksuna çevrilmiş bəzi qəzet və jurnallarda Qarabağ müharibəsi haqqında dərc edilmiş məlumatlar birtərəfli xarakter daşıyırdı. Məhz belə media qurumlarının yaydığı xəbərlər "yaxşını pisdən ayırmağı" çətinləşdirmişdi.

Ermənistanın uzun illər güclü dövlətlərdəki diasporunun köməyi ilə yaratdığı anti-Azərbaycan əhvalı müharibənin ilk günlərində özünü göstərməyə başladı. Fransa prezidenti E.Makron Azərbaycan tərəfdə muzdluların vuruşması barədə əsassız bəyanatlar səsləndirməyə başladı, Rusiya telekanalları ölkəmizə qarşı uydurma ittihamlar səsləndirdi. Hətta BBC kimi ciddi telekanalın efirində müharibənin ilk günlərində "Qarabağda Suriyadan gətirilmiş terrorçular vuruşurlar" kimi qeyri-ciddi məlumatlar yer aldı. Aşkarca görünürdü ki, Qərbin bəzi dairələri erməni təbliğatçılarının köməyi ilə Azərbaycanın apardığı müqəddəs Vətən müharibəsinə dini don geyindirməyə çalışırlar.

Belə bir şəraitdə Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan İlham Əliyevin çıxış və bəyanatları, xüsusən müxtəlif xarici ölkələrin KİV-inə verdiyi müsahibələri ölkəmizin apardığı informasiya müharibəsində önəmli rol oynamışdır. Azərbaycanın dövlət başçısı ölkəmizin rəsmi və haqlı mövqeyini dolğun şəkildə ifadə edən bu müsahibələrlə Qərbdən gələn siyasi təzyiqləri neytrallaşdırmağa, bizə qarşı aparılan informasiya müharibəsini zərərsizləşdirməyə çalışmışdır. Ölkənin birinci şəxsinin dilindən verilən informasiyalar təkcə siyasi mövqe nümayişi baxımından deyil, həm də Azərbaycan-Ermənistan münasibətlərinə aydınlıq gətirmək, Qarabağ probleminin həllində beynəlxalq

hüququn önəmini qabartmaq, bu məsələyə dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini, Avropa parlamenti və Avropa İttifaqının sənədlərini xatırlatmaq baxımından ciddi informativ əhəmiyyət kəsb etmişdir.

Prezident İlham Əliyevin xarici KİV nümayəndələrinə verdiyi 30-dan çox müsahibənin xalqımızın tarixi-siyasi yaddaşını yaşatmaq baxımından da müstəsna əhəmiyyəti olmuşdur. Həmin müsahibələrin bir əhəmiyyəti də ondadır ki, mövcud Azərbaycan gerçəkliyi, erməni işğalının miqyası, əks-hücum əməliyyatlarının zəruruiliyi, Qarabağ probleminin mahiyyəti, Bakıya qarşı aparılan informasiya saxtakarlığı və s. barədə dünya ictimaiyyətinə ilkin mənbədən xeyli qiymətli məlumatlar verilmiş, bir çox mühüm məsələlərə aydınlıq gətirilmişdir. Ona görə də biz bu müsahibələrin informativliyi, onların dəqiq və toplu məlumat daşıyıcısı olması faktına diqqət yetirməliyik.

Müsahibələrdə ilk növbədə, həm Qarabağ probleminin danışıqlar yolu ilə həllinin dalana dirənməsi, Minsk qrupunun yarıtmaz fəaliyyəti, həm də beynəlxalq hüququn ölkəmizə verdiyi üstünlüklər və Azərbaycanın işğal faktı ilə barışmaması ön plana çəkilirdi. Məsələn, Prezident Rossiya-1 telekanalının “60 dəqiqə” proqramına verdiyi müsahibədə bildirir ki, illər boyu Azərbaycan insanı, yalnız qaçqınımız-köçkünümüz yox, böyüklü-kiçikli hamımız, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının - ATƏT-in Qarabağ düyününü çözmək, Ermənistan-Azərbaycan münaqişəsini həll etmək məqsədilə yaradılmış Minsk qrupuna bir ümid yeri kimi baxmışıq. Əslində, zahirən hər çətin beynəlxalq məsələni həll etməyə qadir təsiri bağışlayan ABŞ, Rusiya, Fransa üçlüyünün həmsədrliyi də bu ümidlərin doğrulmasına əsas verirdi. Başladılar gəlməyə-getməyə, müzakirələr aparmağa, tərəfləri görüşdürməyə, sənədlər hazırlamağa. Hər təzə görüşə təzə ümidlərlə baxdıq və illər bir-birini əvəz edib onillərə çevrildi. İş o yerə çatdı ki, bunca böyük dövlətləri təmsil edən həmin quruma bəslənən ümidlər tədricən söndü, bütün proses iflic vəziyyətinə düşdü. Yəni, təxminən 30 il müddətdə ATƏT-in Minsk qrupu bizə ümidlərimizi azacıq da olsa doğuracaq heç bir töhfə vermədi. Əvəzində Ermənistanı çox ümidləndirdilər, üstüörtülü başa saldılar ki, donmuş qala-qala, sükunətdə ola-ola bu münaqişə mahiyyətcə sizin, yəni ermənilərin xeyrinə həll olunacaq.

Ona görə də Prezident İlham Əliyev dünya mətbuatının diqqətinin bölgəyə yönəldiyi bir vaxtda verdiyi müsahibələrdə təkcə düşmənin əsl simasını və saxtakarlığını ifşa etmirdi, həm də bu düşməni öz qanadı altına alan ATƏT-in Minsk qrupu həmsədrlik institutunun da iç üzünü açırdı. Bunları misilsiz diplomatik dillə, siyasətçi qüdrəti, natiqlik istedadı, incə polemika məharəti ilə çatdırırdı. Məsələn, Prezident İlham Əliyev oktyabrın 28-də Rusiyanın “İnterfaks” agentliyinə müsahibəsində ATƏT-in Minsk qrupuna verdiyi sırf mənfi xasiyyətnaməni yenidən təkrar edirdi, bu mesajları ilk növbədə həmsədr ölkələrin auditoriyasına, həm də bütün dünyaya ötürürdü: “Minsk qrupu özünü doğrultmadı... Özü də əgər

Minsk qrupunun həmsədrləri hansısa başqa ölkələr olsaydı, bunu hələ onunla izah etmək olardı ki, o ölkələrin dünyada kifayət qədər təsir qüvvəsi yoxdur, hətta BMT Təhlükəsizlik Şurasının onların özlərinin qəbul etdikləri qətnamələrini reallaşdırmaq üçün kifayət qədər nüfuzu yoxdur. Lakin Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü, üç nüvə dövləti olduğu halda onların Ermənistana təzyiq göstərməsinin mümkün olmaması, əlbəttə, çoxlu suallar doğurur".

Prezident İlham Əliyevin dünyanın bir sıra aparıcı telekanalları və informasiya agentliklərinə verdiyi müsahibələrinə sadəcə, bir dövlət başçısının bir jurnalistlə söhbəti kimi baxmaq olmaz. Burada məsələlərə siyasi-hüquqi baxımdan xeyli geniş yanaşmaq, həmin müsahibələri daha çox həqiqətin ifadəsi, yalanların ifşası kimi qiymətləndirmək lazım gəlir.

Yalan böyüdükcə müəyyən zaman içində həqiqətin üstünə kölgə salır. Amma tarix göstərir ki, necə deyilməsindən asılı olmayaraq, gec-tez bütün yalanların üstü açılır. Belə yalanların ömrü əsl həqiqət bilinənə kimidir, çünki yalanın ən böyük düşməni həqiqətdir. Bu mənada Prezident İlham Əliyevin müsahibələrinin ən böyük gücü Azərbaycan həqiqətlərini dünyaya çatdıraraq ermənilərin və onların çoxsaylı himayədarlarının yalanlarını alt-üst etməsində olmuşdur. Ona görə də informasiya şəraitini düzgün qiymətləndirən Prezident İ.Əliyev müsahibə istəyən nüfuzlu media qurumlarının heç birinə "yox" demədi. Əksinə, bu müsahibələrə Azərbaycan həqiqətini dünyaya çatdırmaq fürsəti kimi baxdı, ona görə də az qala, hər gün, günaşırı müsahibələrin biri digərini əvəzlədi. Bunu, əvvəla, ona görə edirdi ki, öz gücünə bələd idi, istənilən ən çətin suala cavab verməyə hazır idi. Ikincisi, həmin müsahibələr geniş auditoriyanı dəqiq məlumatlarla təmin edəcəkdi.

Bu gün biz həmin müsahibələrə qulaq asa-asa, aqressivliklə qoyulan bir sıra haqsız, ədalətsiz, yanlış, qərəzli yanaşmaları məntiqlə, sübutla, inandırıcı qətiyyət və peşəkarlıqla cavablandıran Prezidentə baxa-baxa onun görmədiyimiz, şahidi olmadığımız qapalı görüşlərini, eşitmədiyimiz telefon danışıqlarını, müzakirə olunan məsələ ilə bağlı Azərbaycanın mövqeyini hansı səviyyədə qoruduğunu təxminən təsəvvür edə bilirik. Ona görə də bu müsahibələrdə Qarabağ və Vətən anlayışlarının gündəmdə saxlanmasına təbii baxırıq. Bu baxımdan oktyabrın son günündə Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsində yetərincə ibrətli məqam var. Jurnalistin "Qarabağ sizinçün niyə bu qədər önəmlidir?" sualına cavabında dövlət başçısı "Ən əvvəl ora Vətəndir, bizim torpağımızdır, bu, milli qürur məsələsidir" deyir və sözünü onunla tamamlayır ki, biz bu mübarizəmizlə həm də "...ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik", yəni bu ali qurumun düşmüş hörmətini qaldırırıq.

Əslində hərbi-siyasi həssaslığın yüksək olduğu bir vaxtda Azərbaycan dövlət başçısının hər bir müsahibəsi öz mükəmməl quruluşu olan dramatik ekran əsəri təsiri bağışlayır. Bu baxımdan İtaliyanının RAİ 1 televiziya kanalının, həmin ölkənin "La Repubblica" qəzetinin, İspaniyanın EFE informasiya agentliyinin və bir sıra başqalarının da Prezidentlə apardığı, onların özlərinin də, auditoriyalarının da, elə bizim də məlumat dairəmizi genişləndirən müsahibələri çox yaddaqalan olmuşdur.

Çoxsaylı müsahibələr həm də Azərbaycan dövlət başçısının dərin siyasi biliyini, yüksək intellektini və polemika mədəniyyətini nümayiş etdirmiş oldu. Məhz bu keyfiyyətləri sayəsində Prezident İlham Əliyev müsahibələrə heç də xoş niyyətlə qoşulmayan özündənrazı və eqoist intervüyerləri asanlıqla məğlub edə bildi. Çünki artıq 1-2 sualdan sonra o, qarşısındakı şəxsin hansı məzhəbə qulluq etdiyini, bu sorğuları dürüst bilgilər almaq istəyən peşəkar jurnalist, yoxsa tamam fərqli məqsədlər güdən şəxs olduğunu dəqiq müəyyən edərək müsahibənin gedişatını çox ustalıqla dəyişə bilirdi. Məsələn, oktyabrın 25-də Azərbaycan dövlət başçısı ilə müsahibəyə böyük hay-küylə başlayan ABŞ-ın "Fox News" televiziya kanalının aparıcısı artıq bir neçə sualdan sonra qarşısındakı şəxsin adi adam olmadığını görüb, tədricən özünü yığışdırmağa başladı. Müharibə haqqında həqiqətlərin nə yerdə olduğunu bildiyi, İkinci Qarabağ müharibəsi öncəsi Ermənistanın törətdiyi bütün təhrikçi, pozucu və təxribatçı fəaliyyətlərdən xəbərdar olduğu halda Prezident İlham Əliyevlə müsahibədə ilk sualı "siz müharibəni başlamağa imkan axtarırdınız" kimi cəfəngiyyatları dilə gətirirsə, deməli, bu şəxsin məramı təməlindən düz deyil. Ona görə də Prezident aparıcıya ən incə üsullarla mesaj verdi ki, yanaşmanız kökündən yanlışdır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin xarici KİV-lərə verdiyi samballı müsahibələrdən danışarkən bu sorğuları aparan jurnalistlərin bir çoxunun qərəzli və media etikasına uyğun olmayan davranış sərgiləmələrini ayrıca qeyd etməliyik. Bəzən müsahibə zamanı sualların qoyuluşu o qədər bəsit, o qədər ədalətsiz, o qədər qərəzli və biryönlü, o qədər ermənisayaq, o qədər açıq-aşkar saxta və həqiqəti tam tərsinə çevirən, o qədər təxribat xarakterli olurdu ki, bunlara hirslənməmək, hövsələdən çıxmamaq adama mümkünsüz görünürdü. Amma İlham Əliyev müvazinətini itirmədən, təmkinini pozmadan, səsinin sakit ahəngini dəyişmədən, yüksək dözüm və nəzakət nümayiş etdirərərək həmin suallara da mədəniyyətlə cavab verirdi, sərrast cavablar məhz bu təmkinli tərzdə ifadə edildiyi üçün bir az da effektli alınırdı. Bu baxımdan Prezidentin "Fox News" televiziya kanalına müsahibəsi daha xarakterikdir. Bu müsahibə Prezident İlham Əliyevin bir dövlət başçısı, diplomat, müsahib kimi məharətlərindən birini də üzə çıxartdı ki, ona qarşı əks ovqata köklənmiş rəqibi hansısa məqamda dəqiq zərbə ilə ən zəif, ən göynədən nöqtəsindən vurmağı, qarşısında xoruzlanan adamı özünü yığışdırmağa vadar edir və həmin andan söhbətin məcrası da dəyişir.

Müsahibənin ilk dəqiqələrindən anlaşılır ki, "Fox News"un müxbiri həm xeyli təcrübəli (özü bildirir ki, 30 il Avropada işləyib), həm də siyasi debatları siyasi döyüşə döndərməkdə səriştəsi olan hazırlıqlı mütəxəssisdir və onu Prezident İlham Əliyevlə müsahibəyə hansısa qüvvələrin sifarişi ilə, guya öz ağır artilleriyaları kimi çıxarıblar. Amma bu artilleriyanın ilk sual atəşləri göstərir ki, bunlar tərəfsiz bir jurnalistin sualları deyil, Azərbaycanı sırf erməni mövqeyindən küncə sıxışdırmaq, məsələlərin tam ermənisayaq qoyuluşu ilə hücum çəkmək məqsədli qərəzli bir müsahibədir. Sualların da hər biri həmsöhbəti çətinə salmaqdan və tamaşaçı auditoriyasında guya mənfi rəy formalaşdırmaqdan ötrü ciddi şəkildə hazırlanıb. Amma burada bircə şey nəzərə alınmayıb: müsahibə verən şəxsin siyasi yetkinliyi, onun siyasi intellekti və diplomatik təcrübəsi. Məhz bu məqam nəzərdən qaçırıldığı üçün sensassiya yaratmağa çalışan aparıcı öz məqsədinə nail ola bilmir. İlk dəqiqələrdəncə bütün sualların qərəzini duyan İlham Əliyev təmkinini pozmadan, təbəssümünü də əskiltmədən suallara bir-bir dəqiq, etiraz yeri qoymadan, yalanları, iftiraları dərhal, yerindəcə ifşa edən obyektiv, məntiqli, hər kəsi inandıran dəqiq və siyasi-hüquqi baxımdan kifayət qədər əsaslandırılmış cavablar verir.

Aparıcı növbəti həmləsini edir və həmin sualın içərisində bir neçə ittiham, tənqid, həm də qarayaxma var. Sual uzun deyil, vur-tut yarım dəqiqə ola-olmaya. Amma bir qısa suala bu qədər qınayıcı çalarlar sığışdırılıbsa, mətn bir daha göstərir ki, bu sualların hər biri cidd-cəhdlə hazırlanıb. Sual eşidilincə, belə təsəvvür yaranır ki, sanki azı 4-5 uzantısı olan qısa sualın altından çıxa bilməkçün uzun cavab verməyə ehtiyac duyulacaq. Lakin Prezident İlham Əliyev elə həmin sualın səsləndiyi vaxta tam uyğun gələn saniyələr ərzində öz cavabını verir və Bu məqamda

İlham Əliyevin rişxəndli cümləsinin müqabilində aparıcının reaksiyası artıq məğlubiyyətin ifadəsidir: "Siz Amerika siyasətini bilirsiniz, cənab Prezident!".

Dövlət başçısının BBC əməkdaşı ilə müsahibəsi də müxbirin qeyri-peşəkarlığı və etik qaydaları gözləyə bilməməsi səbəbindən çox dramatik keçmişdir. Burada Prezident xüsusi hazırlaşdırılaraq məkrli tapşırıqla gəlmiş müxbirin istifadə etməyə çalışdığı üsulun onun özünə qarşı yönəlməsinə nail olmuşdur. Sanki müsahibəyə nə üçün gəldiyini unudan BBC müxbiri rabitəsiz olaraq hardan və nədən gəldi suallar verir, Azərbaycana əsassız ittihamlar yağdırır, arada dövlət başçısına təşəxxüslə demokratiya dərsi vermək niyyətinə düşür. Amma Prezident onu dərsini bilməyən hazırlıqsız şagird halına gətirərək dərs verməyə başlayır. Qarşısındakı müxbir düşdüyü situasiyadan qaçmaq, sualdan yayınmaq istəyir, amma Prezident onu buraxmır. Sual verən, guya, narahatdır ki, münaqişə bitəndən sonra ermənilər Dağlıq Qarabağa qayıdacağı təqdirdə, onlar zəruri hüquq və azadlıqlarla təmin olunacaqmı? Həm də sualı ilk sözündən elə Azərbaycana zidd biçimdə qoyur ki, sualın içində özünün müəyyənləşdirdiyi zərərli cavabı

görürsən. Elə təxminən açıq şəkildə deyir ki, sizin ölkədə bu azadlıqlar yoxdur və "fağır" ermənilər də sizinlə birgə yaşamalı olacaqsa, onlar da belə dəyərlərə eyni dərəcədə tamarzı qalacaqlar. Əslində bu, sual deyil, ağır ittihamdır və ona görə də İlham Əliyev müxbirə cavabını sualla başlayır, qarşısındakının cavab verə bilmədiyi sadə, amma ifşaedici suallarla davam edir:

"- Siz hesab edirsiniz ki, insanların bu haqları yoxdur? Nəyə görə siz Azərbaycanda insanların azad mediaya və müxalifətə malik olmadığını düşünürsünüz?

- Çünki mənə bu barədə müstəqil mənbələrdən məlumat veriblər.
- Hansı müstəqil mənbələrdən?
- Bir çox müstəqil mənbələrdən.
- Deyin mənə, hansılardır?
- Əlbəttə ki, mən onların adlarını çəkə bilmərəm.
- Əgər siz onların adlarını deyə bilmirsinizsə, bu, o deməkdir ki, siz bir hekayə uydurursunuz".

Almaniyanın ARD televiziya kanalına müsahibəsində də oxşar və əsassız suallar verən, "mən bəzi türk əsgərləri ilə söhbət etdim" deyən müxbiri Prezident İlham Əliyev məsuliyyətə dəvət etməsi çox ibrətamizdir. Yəni jurnalistin "deyəcəyəm, keçəcək" zənni ilə dilə gətirdiyi sözündən yapışaraq onu müşkülə salan Prezident əslində televiziya əməkdaşına həqiqət və məsuliyyət dərsi keçmiş oldu. Bu dərsin əsas ibrətamiz nəticəsi o oldu ki, müsahibəyə gələn jurnalist mütləq mövzunu bilməli, regiona və problemə bələd olmalı, yalanı həqiqət kimi qələmə verməməli, həm də peşə etikasına uyğun şəkildə özünü obyektiv, tərəfsiz və qərəzsiz aparmalıdır.

II Qarabağ savaşında işğalçı Ermənistan müxtəlif istiqamətlərdə siyasi-diplomatik və informativ təxribatlara əl ataraq uzun illər beynəlxalq ictimaiyyətə dezinformasiya, həqiqətə uyğun olmayan yalan məlumatlar ötürərək hər addımda Azərbaycanı ittiham etməyə çalışmışdır. Təəssüf ki, Ermənistanın bu yalanlarına inananlar da az olmamışdır. Çünki bəzən insan psixikasını əsir edən yalana inanmaq və düşüncəyə təsirlə bağlı aparılan son araşdırmalar da göstərir ki, müharibələr zamanı informasiya təbliğatı müxtəlif emosional manevrlər və təkrarlanan yalan məlumatlar bu və ya başqa dərəcədə insan şüurunda iz qoya bilir. Bax, hərbi əməliyyatların getdiyi günlərdə bu yalanların qarşısını almaq və həqiqəti ifadə etmək baxımından dövlət başçısı İlham Əliyevin xarici KİV-lərə verdiyi müsahibələr rəsmi məlumat kimi misilsiz rol oynamışdır.

Təbii olaraq ortaya belə bir sual çıxa bilər ki, bu məntiqlə Ermənistan rəsmi şəxslərinin də çıxışları, verdikləri bəyanat və müsahibələr də rəsmi məlumat kimi düşmən tərəfin məqsədlərinə xidmət etmişdir. Əlbəttə, informasiya nəzəriyyəsi və "rəsmi məlumat"a verilən hüquqi xarakterizə baxımından bu, doğru ola bilər. Amma nəzərə alsaq ki, Ermənistanın dövlət siyasətinin əsasında məhz yalan və

saxtakarlıq dayanır, o zaman həmin ölkənin rəsmi şəxslərinin dilindən çıxanları qətiyyən mötəbər və rəsmi məlumat saymaq olmaz.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin müsahibələrində bu məqama da toxunulmuşdur. Məsələn, "CNN İnternational" telekanalının müxbiri Ermənistan baş nazirinin hərbi əməliyyatların gedişində Azərbaycanı "min illərdir Qarabağda yaşayan", guya, tarixən "həmişə aparıcı etnos" olan saxtakar erməniləri "etnik təmizləməyə" məruz qoymaqda ittiham etməsi ilə bağlı sual verərkən dövlət başçısı "mən təəssüf edirəm ki, belə mühüm vəzifə tutan şəxs yalanlar yayır. İnternetə baxın, XIX əsrin əvvəllərində Azərbaycanın Qarabağ xanı ilə rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə baxın. Erməni əhalisi haqqında heç bir şey deyilmir. Erməni əhali bizim torpağımıza Rus-İran müharibəsindən sonra Rusiya imperiyası tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülüb. *Bu, tarixi faktdır. Ermənistan baş nazirinin dedikləri isə feykdir, tamamilə feykdir"*.

Hadisələrin gedişatı göstərdi ki, II Qarabağ müharibəsi zamanı Azərbaycan həm döyüş meydanında, həm də informasiya savaşında yüksək hazırlıq nümayiş etdirərək düşməni məğlub edə bilmişdir. Şübhəsizdir ki, bu prosesdə ölkə Prezidenti İlham Əliyevin xarici KİV-lərə ard-arda verdiyi tarixi müsahibələr həlledici rol oynamışdır. O səbəbdən də həmin müsahibələr 44 günlük müharibənin informasiya xronikası, xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizəsinin Zəfər salnaməsi kimi tarixin yaddaşına hopmuşdur.

## Ədəbiyyat siyahısı:

1. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları, müsahibələri, tvitləri. Bakı, "Qanun" nəşriyyatı, 2020.
2. Гасанов А. Интерпретация армяно-азербайджанской войны в российских СМИ. Вестн. Моск. ун-та. сер. 10, Журналистика. 2021. № 3.
3. Məhərrəmli Q. Jurnalistikanın əsasları. Bakı, Qanun nəşriyyatı, 2012.
4. Ələkbərova İ. İnfiormasiya müharibəsi texnologiyaları. Ekspress informasiya. Bakı, "İnformasiya texnologiyaları" nəşriyyatı, 2012.
5. Hacılı R., Məmmədli Ə., Ağaliyev X. Media hüququ: jurnalistin hüquq bələdçisi. Bakı, Qanun nəşriyyatı, 2011.
6. Hacınski T. İnsanın yalana inanması özünə qarşı tuşlanmış silah kimidir. Bakı, CİBS, 2020.
7. Vivian C. Kütləvi kommunikasiya mediası. Bakı, Teas Press, 2021.
8. Hargreaves J. Gazetecilik. Dost Kitabevi yayınları, Ankara, 2006.

**Махира Якубова**

## Об историческом значении интервью Президента Азербайджана Ильхама Алиева зарубежным СМИ

**Резюме:** Азербайджан, вставший на борьбу за территориальную целостность и суверенитет Государства, в 44-дневной Отечественной войне пережил новый этап своей тысячелетней истории.

Война показала миру превосходство, мощь государства и его морально- интеллектуальную силу. В этом плане исключительную важность представляют многочисленные (около 30) интервью главы государства и Верховного Главнокомандующего Ильхама Алиева зарубежным СМИ в период боевых действий. Они отражают реальную действительность Азербайджана, сущность Карабахской проблемы, масштабность армянской агрессии, необходимость, контр - наступательных операций, информационную войну против Баку и др.

В данных интервью продемонстрированы глубокие политические знания главы государства, его высокий интеллект и культура полемики.

Ключевые слова: информативность, интервью, медиа, информационная война, полемика.

**Mahira Yaqubova**

## The historical significance of the president ilham aliyev`s interviews to foreign media

**Summary**: The people of Azerbaijan, who fought for their territorial integrity and state sovereignty, experienced a new and very different stage in the history of the millennium in the 44-day Patriotic War. The war showed both the military power of our country and its moral and intellectual strength to the whole world. In this regard, the interviews of the President and Commander-in-Chief Ilham Aliyev to about 30 foreign media representatives during the war were of exceptional importance. These interviews provided the world community with valuable information about the current reality of Azerbaijan, the essence of the Karabakh problem, the scale of the Armenian occupation, the need for counter-offensive operations, the information warfare against Baku, etc. by the first person of the state and officially clarified many important issues.

These interviews, which play an important role in the information war and are considered official information, are very valuable, first of all, in terms of informativeness, expression of truths about the Karabakh problem, exposing lies

(fakes) spread by Armenian official policy and media around the world. These interviews also demonstrated the deep political knowledge, high intellect and culture of controversy of the President of Azerbaijan.

**Key words:** informativeness, interview, media, information warfare, official information, controversy.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərov**